# DƏNİZ

Qəzet 1931-ci ilin aprelindən çıxır

30 dekabr 2014-cü il

№ 43-44 (8957)

Qiyməti 38 qəpik

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin qəzeti


## Dünya azərbaycanlılarına

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Hər il böyük sevinclə qeyd etdiyimiz 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində Sizi ürəkdən salamlayır, hamınıza xoşbəxtlik, sülh və əmin-amanlıq arzulayıram!

Dünyada yaşayan soydaşlarımızın Vətənə və azərbaycançılıq məfkurəsinə sədaqətini, xalqımızın öz keçmişinə və milli mənəvi dəyərlərinə ehtiramını əks etdirən bu bayram tarixi yaddaşımızın mühüm tərkib hissəsinə çevrilmişdir. Ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri sayəsində milli birlik və həmrəylik ideyaları daha dolğun məzmun kəsb edərək, real fəaliyyət sahəsi kimi dövlət siyasəti səviyyəsinə yüksəlmişdir. "Güclü dövlət – güclü diaspor" prinsipini rəhbər tutan həmin siyasətin əsas qayəsi xarici ölkələrdə yaşayan soydaşlarımızın tarixi Vətənlə bağlılığını möhkəmləndirmək, mütəşəkkilliyini artırmaq, diaspor qurumlarının imkanlarından həmvətənlərimizin hüquqlarının və milli dövlət maraqlarının qorunmasında daha səmərəli istifadə etməkdən ibarətdir.

Sevindirici haldır ki, diaspor quruculuğu sahəsində aparılan işlər öz bəhrəsini verir. Xaricdəki həmvətənlərimiz məskunlaşdıqları ölkələrin cəmiyyətlərində mövqelərini genişləndirir, Azərbaycanın dünyada tanıdılmasına, zəngin mədəniyyətimizin təbliğinə, bəzi qüvvələrin dövlətimiz və xalqımızın əleyhinə yönəlmiş məkrli planlarına qarşı təsirli tədbirlər görürlər. Diaspor təşkilatlarımız bundan sonra da səylərini artırmalı, Azərbaycanın müvafiq dövlət qurumları və xarici ölkələrdəki diplomatik nümayəndəlikləri ilə əməkdaşlıq şəraitində daha məqsədyönlü və çevik fəaliyyət göstərməlidirlər.

Bu gün hər bir həmvətənimiz Azərbaycan Respublikası ilə fəxr etməkdə haqlıdır. Biz keçən illər ərzində iqtisadiyyatımızı sürətlə inkişaf etdirməyə, əhalinin rifah halını yüksəltməyə, yoxsulluq və işsizlik kimi sosial bəlaların səviyyəsini minimuma endirməyə nail olmuşuq. Enerji resurslarından əldə edilən gəlirlər iqtisadiyyatın şaxələndirilməsinə, insan kapitalının və demokratik institutların inkişafına yönəldilmişdir. Ölkədə nəhəng nəqliyyat və sosial infrastruktur layihələri icra edilmiş, elm, təhsil, səhiyyə, mədəniyyət və idmanın inkişafı üçün müasir və güclü maddi-texniki baza yaradılmışdır.

Sivilizasiyalararası dialoq və humanitar əməkdaşlıq istiqamətində irəli sürülən təşəbbüslər, yüksək səviyyədə keçirilən beynəlxalq forumlar ölkəmizi multikulturalizm və tolerantlığın mərkəzi kimi tanıtmışdır.

Azərbaycan müstəqil dövlət kimi dünyanın siyasi, iqtisadi və humanitar həyatında fəal rol oynayır. 2014-cü ildə Avropa Şurası Nazirlər Komitəsinə sədrliyi dövründə ölkəmiz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmişdir.

Cari ildə "XXI əsrin müqaviləsi" adlandırılan layihənin icrası istiqamətində mühüm addım atılmışdır. "Cənub qaz dəhlizi"nin təməlinin qoyulması ilə Azərbaycan Avropanın enerji təhlükəsizliyi sistemində öz mövqelərini daha da möhkəmləndirmək və beynəlxalq aləmə inteqrasiyanı dərinləşdirmək üçün yeni imkanlar qazanmışdır.

Gələn ilin yayında paytaxtımız birinci Avropa Oyunlarına ev sahibliyi edəcəkdir. Biz bu böyük idman bayramına ciddi hazırlaşır, ölkəmizə bəslənilən inam və etimadı doğrultmaq üçün əzmlə çalışırıq.

Müstəqillik dövrünün qısa tarixi dövlətimizin strateji xəttinə alternativin olmadığını, azərbaycançılıq ideologiyasına söykənən siyasətin düzgünlüyünü sübut edir. Əminəm ki, dünya azərbaycanlılarının həmrəyliyi bundan sonra da xalqımızın qarşısında dayanan bütün vəzifələrin öhdəsindən uğurla gəlməyə, torpaqlarımızı tezliklə Ermənistanın işğalından azad etməyə, sürətlə dəyişən, ziddiyyətli dünyanın çağırışlarına adekvat cavab verməyə kömək edəcəkdir. Bunun üçün biz sıralarımızı daha da möhkəmləndirməli, əcdadlarımızdan miras qalmış çoxəsrlik mədəniyyətimizi inkişaf etdirməli və hamımızın pənah yeri olan müstəqil Azərbaycanımızın güclənməsinə birgə əməli fəaliyyətimizlə yeni töhfələr verməliyik.

Bu bayram münasibətilə Sizi səmimi qəlbdən təbrik edir, hər bir soydaşımıza və həmvətənimizə səadət, firavanlıq, işlərində uğurlar diləyirəm!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 24 dekabr 2014-cü il.*

## TƏBRİK

Əziz həmkarlar!

Sizi qarşıdan gələn bayramlar - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, səadət, xoşbəxtlik və müstəqil Azərbaycanımızın tərəqqisi naminə fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Yola saldığımız il yaddaşımızda kifayət qədər uğurlu və nailiyyətlərlə zəngin, xalqımızın daha xoşbəxt gələcəyinə ümid ili kimi qalacaqdır. Ölkəmiz iqtisadi inkişaf sürətinə görə dünyada lider mövqeyini 2014-cü ildə də qoruyub saxladı. Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən əzəmətli sosial-iqtisadi inkişaf proqramları və infrastruktur layihələri təkcə gənc, müstəqil Azərbaycanımızın gücünə güc, qüdrətinə qüdrət qatmadı. Bu bir ildə gücləndiyi, qüdrətləndiyi qədər də, dövlətimizin bütün dünyada nüfuzu, sözünün kəsəri artdı. Güclü, qüdrətli Azərbaycan isə bütün problemlərimizin həlli, daha xoşbəxt gələcək deməkdir.

2014-cü il həm də xalqın seçdiyi və sevdiyi rəhbəri ətrafında sıx birləşdiyini göstərdi, regionun lider dövləti olan Azərbaycanın daha böyük zəfərlərə imza ata biləcəyini, Ulu öndər Heydər Əliyevin strateji xəttinin alternativsizliyini bir daha sübut etdi.

Yola saldığımız il Cəmiyyətimiz üçün də uğurlu oldu. Uzun fasilədən sonra gəmilərimizin dünya sularına qayıdışı, Qara dənizdə "Üzeyir Hacıbəyli" və "Natəvan" gəmilərində müstəqil Azərbaycanımızın üçrəngli bayrağının qaldırılması, donanmalarımızın daha müasir nəqliyyat vasitələri ilə zənginləşdirilməsi məqsədilə müxtəlif təyinatlı yeni gəmilərin alınması və istismara verilməsi, Bakı Gəmiqayırma Zavoduna sifariş edilmiş sərnişin gəmilərinin inşasına başlanması kimi çox mühüm və xoş hadisələrin sevincini sizinlə birgə yaşadıq.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin dekabrın 18-də "Müslüm Maqomayev", "Lənkəran" gəmilərinin istismara verilməsi mərasimində iştirakı və Gəmiçilik barədə dediyi xoş və dəyərli sözlər, verdiyi tapşırıq və tövsiyələr isə kollektivimizdə böyük ruh yüksəkliyi yaratmaqla yanaşı, həm də hər birimiz üçün fəaliyyət proqramıdır.

Əminəm ki, kollektivimiz Azərbaycanı qətiyyətlə irəli aparan dövlət başçımızın hər sahədə mütərəqqi siyasətini dəstəklədiyini Yeni ildə də əməli işi ilə sübut edəcək, dəniz nəqliyyatı qarşısında qoyduğu vəzifələri layiqincə yerinə yetirəcək, Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlı Böyük İpək yolunda, möhtəşəm Neft Strategiyasının gerçəkləşdirilməsində dövlətimizin maraqlarına yüksək səviyyədə xidmət edəcəkdir.

Əziz həmkarlar!

Bir daha sizi təbrik edir, sizə aydın səma, uğurlu səfərlər və müstəqil Azərbaycanımızın tərəqqisi, dəniz nəqliyyatının inkişafı naminə fəaliyyətinizdə daha böyük uğurlar arzulayıram.

Hörmətlə,

**Rauf VƏLİYEV,**
**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri**

# YENİ GƏMİLƏRİN TƏQDİMATI

## PREZİDENT İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETDİ




**Dekabrın 18-də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin yeni gəmilərinin təqdimatı və dünya şöhrətli müğənni Müslüm Maqomayevin adını daşıyan gəminin istismara verilməsi mərasimi keçirildi.**

Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, Müslüm Maqomayevin həyat yoldaşı, SSRİ xalq artisti Tamara Sinyavskaya, ARDNŞ-in prezidenti Rövnəq Abdullayev, Dövlət Dəniz Administrasiyasının rəisi Qüdrət Qurbanov, eləcədə BP Azərbaycan şirkətinin prezidenti Qordon Birel iştirak edirdilər.

Tamara Sinyavskaya gəminin istismara verilməsini bildirən rəmzi lenti kəsdikdən sonra Müslüm Maqomayevin məşhur "Azərbaycan" mahnısı səsləndirildi.

Daha sonra xatirə şəkli çəkdirildi.

Gəminin kapitanı Prezident İlham Əliyevə raport verdi.

Gəmidə yaradılan şəraitlə tanışlıq zamanı Prezident İlham Əliyevə məlumat verən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev bildirdi ki, "Kaspian Marin Servisez" şirkəti ilə uzunmüddətli Alyans razılaşması çərçivəsində alınan "Müslüm Maqomayev" sürətli sərnişin gəmisinin uzunluğu 70 metr, eni 16 metr, bortunun hündürlüyü 6 metrdir. 150 nəfər tutumu olan gəmi Beynəlxalq Dəniz Təşkilatının sürətli gəmilərin tikintisində tətbiq edilən HSC kodu tələblərinə uyğun olaraq inşa edilib. BP şirkətinin sifarişlərini yerinə yetirəcək "Müslüm Maqomayev" gəmisinin

*(Davamı 2-ci səhifədə)*

22son:Layout 1 27.12.2014 12:34 Page 2



# YENİ GƏMİLƏRİN TƏQDİMATI

## PREZİDENT İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETDİ














*(Əvvəli 1-ci səhifədə)*

Xəzər hövzəsində analoqu yoxdur. Katamaran tipli, yeni ikigövdəli unikal gəmidə hər biri 3917 at gücündə olan 4 mühərrik qoyulub. Bu, saatda 70 kilometrə qədər sürət yığmağa və nəticədə neftçiləri dəniz platformalarına daha tez çatdırmağa imkan verəcək. Gəmi müasir tələblərə uyğun olaraq, DP2 - dinamik dayanıqlıq sistemi və sərnişinlərin platformalara təhlükəsiz keçidi üçün xüsusi körpü ilə təchiz olunub və ilk növbədə dənizdə insan həyatının qorunmasına xidmət edir.

Gəmidə həmçinin Müslüm Maqomayevin xatirə guşəsi yaradılıb. Burada dünya şöhrətli müğənninin müxtəlif fotoları yer alıb. SSRİ xalq artisti Tamara Sinyavskaya dünya şöhrətli müğənni Müslüm Maqomayevin xatirəsinə göstərilən diqqətə görə Prezident İlham Əliyevə təşəkkür etdi:

- Çox sağ olun, cənab Prezident! Dedilər ki, mən indi bu gəminin "xaç anası" kimiyəm və onun "yolu uğurlu olsun" sözlərini deməliyəm. Cənab Prezident , sizə böyük minnətdarlığımı bildirirəm. Mən gözləmirdim ki, Müslüm Maqomayevin vəfatından 6 il sonra sakit gülümsəyə bilərəm. Gözləmirdim, çünki burada göz yaşlarından başqa məndə tamamilə fərqli hisslər oyanır. Cənab Prezident, mənim fikrimdə tutduğum arzumu qısa vaxt ərzində gerçəkləşdirdiyinizə görə Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Məni qoruyan mələk isə xanım Əliyeva olub və bundan sonra da olacaq.

Cənab Prezident İlham Əliyev Müslüm Maqomayevin bənzərsiz yaradıcılığından danışdı, onun xatirəsinin Azərbaycan xalqının qəlbində əbədi yaşayacağını vurğulayaraq dedi:

- Bu gün həqiqətən gözəl bir gündür. Müslümün adı verilən bu gəmi gözəl ölkəmizə, Müslümün çox sevdiyi, bağlı olduğu, şərəfinə "Azərbaycan" adlı çox gözəl mahnı bəstələdiyi vətəninə xidmət edəcək. Bu gün bu nəğmə ölkəmizin rəmzidir. Müslümün bəstələdiyi "Dəniz" mahnısı bizim şəhərimizə, dənizə olan məhəbbətini əks etdirir. Yəqin ki, dəniz haqqında daha yaxşı mahnını heç kəs bəstələməyib. Bu gün bu, bizim əziz Müslümümüzün, Azərbaycan xalqının fəxrinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində ilk addımdır. İlk, amma sonuncu addım deyil. Gələcəkdə də addımlar atılacaq. Onun adı bizim xatirəmizdə, qəlbimizdə, Azərbaycan xalqının, Rusiyanın ürəyində əbədi yaşayacaq. Çünki o, həmişə deyirdi ki, Azərbaycan mənim atam, Rusiya isə anamdır. Müslüm Azərbaycanda anadan olub, formalaşıb, məşhurlaşıb, Rusiyada isə ümumdünya şöhrəti qazanıb, öz yaradıcı potensialını tam reallaşdıra bilib. Nadir şəxsiyyət, çoxtərəfli istedad olub. Bir şəxsiyyətdə bu qədər istedadın birləşməsini təsəvvür etmək çətindir. Amma bu, həqiqətən belə idi. Onu tanıyanlar bunu bilirdilər. Bununla yanaşı, Müslüm gözəl insan idi. Bir şəxsiyyətdə həm insani, həm yaradıcı keyfiyyətlərin cəmləşməsi çox nadir haldır. Bugünə qədər heç kəs Müslümün mahnılarını onun özü kimi ifa edə bilmir. Cəhdlər çoxdur. Bu, başadüşüləndir, onun mahnılarını ifa etmək arzusunda olanlar çoxdur. Mən bunu alqışlayıram. Çünki bu mahnılar yaşamalıdır. Lakin bu günə qədər heç kim bu mahnıları Müslüm kimi ifa edə bilməyib. Düşünürəm ki, bundan sonra da bunu edə bilməyəcəklər. Bu gün də hər dəfə onun mahnılarını dinləyəndə sevinc hissi duyuruq, Müslümün bizi çox tez tərk etməsindən isə kədərlənirik. Müslüm bizim ürəyimizdə, xatirəmizdə, dostlarının yaddaşında yaşayır.

Biz onunla çox yaxın dost olmuşuq, bir-birimizə böyük rəğbət və hörmətlə yanaşmışıq. Çox şadam ki, bu gün Tamara və Mehribanla gəmidə Müslümün atamla birlikdə olduğu və onların münasibətlərini əks etdirən fotolara baxdıq. Atam ona oğul kimi, o isə Heydər Əliyevə ata kimi yanaşırdı. Düşünürəm ki, bizim ailəvi münasibətlərimizdə hökm sürən ab-hava bütün cəmiyyətə siyarət edib. Müslümü Azərbaycanda sevirlər, sevirlər və bundan sonra da sevəcək və xatırlayacaqlar.

Tamara Sinyavskaya dedi:

- Təşəkkür edirəm! İlahi, Azərbaycan torpağını qoru! Cənab Prezident, Allah Sizi, Mehriban xanımı, bu gəmini qorusun! Yolu uğurlu olsun!

Sonra Tamara Sinyavskaya gəminin istismara verilməsini bildirən düyməni basdı.

Daha sonra Prezident İlham Əliyev "Lənkəran" yedək-təchizat gəmisində yaradılan şəraitlə tanış oldu. Dövlət başçısına məlumat verildi ki, texniki göstəricilərinə görə Xəzərdə birinci olan, 16320 at gücündə yeni yedək-təchizat gəmisinin dartma qüvvəsi 207 ton, uzunluğu 74.2, eni 17.20, suya oturumu 7.20 metrdir. DP2 dinamik dayanıqlıq sistemi ilə təchiz edilmiş gəminin geniş texniki imkanları onun Xəzərdə bir çox layihələr, o cümlədən "Şahdəniz-2", "Şəfəq-Asiman", "Abşeron Faza-1" layihələri çərçivəsində nəzərdə tutulan işlərə cəlb olunmasını mümkün edir.





Prezident İlham Əliyev "Lənkəran" gəmisindən hazırda Qara dənizdə Azərbaycan bayrağı altında üzən "Natəvan" gəmisinin kapitanı Faiq Əmirovla videobağlantı vasitəsilə söhbət etdi. Gəmi kapitanı dövlətimizin başçısına minnətdarlığını ifadə edərkən dedi:



- Möhtərəm cənab Prezident!

Mən, bütün heyətimiz adından donanmamızın yeniləşdirilməsinə, dənizçilərin əmək və həyat şəraitinin yaxşılaşdırılmasına göstərdiyiniz daimi diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımı bildirirəm. Çox qürurverici faktdır ki, 5 illik fasilədən sonra Xəzərdən kənarda, dünya sularında Azərbaycan bayrağı altında üzən gəmilərimiz var. Dənizçilərimiz beynəlxalq sulara qayıdışı möhtərəm dövlət başçımızın dəniz nəqliyyatına verdiyi əhəmiyyətin yüksək nümunəsi kimi qiymətləndirirlər. Özü də bura köhnə gəmilərlə deyil, yeni alınmış müasir gəmilərlə qayıtmışıq. Biz Gəmiçilik sistemində apardığınız köklü islahatları tam dəstəkləyir və Sizi əmin edirik ki, bizə göstərdiyiniz etimadı var gücümüzlə doğruldacaq, dövlətimizi xarici sularda layiqincə təmsil edəcək, Azərbaycan bayrağını daim uca tutacağıq.

Prezident İlham Əliyev: İndi hardasan?

Kapitan: Hazırda Taqanroq limanındayıq. Gəmiyə yük vurulur. Buradan, inşallah, Türkiyənin İzmir limanına yola düşəcəyik.

22son:Layout 1 27.12.2014 12:34 Page 3








Prezident İlham Əliyev: Çox yaxşı ki, Xəzər Gəmiçiliyinin gəmiləri Qara dənizdə də fəaliyyət göstərir. Gəmiçiliyin gözəl gələcəyi var. Aparılan islahatlar, struktur islahatları və Gəmiçiliyin fəaliyyəti ilə bağlı atılan addımlar gözəl nəticələr verir. Daha da böyük nəticələr olacaq. Bu yaxınlarda Gəmiçiliyin fəaliyyəti üçün əlavə maddi dəstək verilmişdir. Əminəm ki, Xəzər Gəmiçiliyi dünya miqyasında çox gözəl və müasir şirkətə çevriləcəkdir.

Azərbaycanda artıq bir neçə beynəlxalq şirkət fəaliyyət göstərir - SOCAR, AZAL və digər şirkətlər. Əlbəttə ki, özəl şirkətlər də bu sıradadır. Ancaq dövlət şirkətləri arasında Xəzər Gəmiçiliyinin öz yeri, böyük tarixi, ənənələri var. Xəzərdə bizim gəmiçiliyimiz həmişə böyük rola malik olub. Biz də bu gün müasir şirkət yaratmaqla həm iqtisadi potensialımızı möhkəmləndirəcəyik, eyni zamanda, Xəzər Gəmiçiliyi dünya miqyasında müasir, çox səmərəli şəkildə idarə olunan şəffaf şirkət kimi özünü təqdim edəcək. Sizə uğurlar arzulayıram.

Sonra Gəmiçiliyin nailiyyətləri və perspektiv layihələri ilə bağlı məlumat lövhələrinin təqdimatı oldu.

Cəmiyyətin sədri Rauf Vəliyev xüsusi vurğuladı ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi istər nəqliyyat, istərsə də neft donanmasının yeniləndirilməsini və müasirləşdirilməsini özünün prioritet vəzifələrindən sayır və bu istiqamətdə daim dövlətimizin dəstəyinə arxalanır. 2000-ci illərin əvvəllərindən Ümummilli liderimiz Heydər Əliyevin xeyir-duası ilə həyata keçirilən yenilənmə prosesi möhtərəm Prezidentimiz İlham Əliyevin daimi diqqət və qayğısı ilə 10 ildən çoxdur ki, davam edir.

2013-cü ildə yeni Cəmiyyət yaradıldıqdan sonra dövlətimizin və şəxsən möhtərəm Prezidentimizin qayğısı ilə donanmaların təzə gəmilərlə zənginləşdirilməsi məqsədilə əhəmiyyətli addımlar atılmışdır.

Yeni alınan gəmilərdən biri böyük Azərbaycan şairi Nəsiminin adını daşıyır və donanmamızın flaqmanı "Prezident Heydər Əliyev" tankeri ilə eyni layihədəndir. 13000 ton yükgötürmə qabiliyyətinə malik, uzunluğu 149.9, eni 17.3, suya oturumu 7.14 metr olan "Nəsimi" tankeri əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində (TRASEKA) neft və neft məhsulları daşıyır.

"AXDG" QSC-nin və "Kaspian Marin Servisez" şirkətinin uzunmüddətli Alyans razılaşması çərçivəsində daha 3 yedək və 2 borudaşıyan gəmi alınmışdır. Bu gəmilər "Şahdəniz-2" layihəsində istifadə olunacaq, yeni boru kəmərlərinin çəkilişində yaxından iştirak edəcəklər. Yedək gəmilərinin hər biri 3044 at gücündə, dartma qüvvəsi isə 38 tondur. 1890 ton dedveytə malik borudaşıyan gəmilərin uzunluğu 81.6, eni 11.3, suya oturumu 3.7 metrdir.

Ümumiyyətlə, yeni gəmilərin alınması Azərbaycanda gəmi mütəxəssisləri üçün yeni iş yerlərinin açılmasına, istər beynəlxalq, istərsə də yerli yük və xidmət bazarlarında dayanıqlı mövqelərin əldə olunmasına, eləcə də dövlət bayrağımızı dünya sularında və beynəlxalq limanlarda dalğalandırmaqla ölkəmizin təbliğinə və bütövlükdə dəniz nəqliyyatının inkişafına xidmət edəcək.

Sonda Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.

# Azərbaycan Respublikasında 2015-ci il üçün yaşayış minimumu haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**Maddə 1. Əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği**

2015-ci il üçün yaşayış minimumu ölkə üzrə 131 manat, əmək qabiliyyətli əhali üçün 140 manat, pensiyaçılar üçün 108 manat, uşaqlar üçün 108 manat məbləğində müəyyən edilsin.

**Maddə 2. Qanunun qüvvəyə minməsi**

Bu qanun 2015-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 28 noyabr 2014-cü il*

# "Azərbaycan Respublikasında 2015-ci il üçün yaşayış minimumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında 2015-ci il üçün yaşayış minimumu haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasında 2015-ci il üçün yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. üç ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasında 2015-ci il üçün yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 22 dekabr 2014-cü il*

# Azərbaycan Respublikasında 2015-ci il üçün ehtiyac meyarının həddi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**Maddə 1. Ehtiyac meyarının həddi**

Ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2015-ci il üçün ehtiyac meyarının həddi 105 manat məbləğində təsdiq edilsin.

**Maddə 2. Qanunun qüvvəyə minməsi**

Bu qanun 2015-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 28 noyabr 2014-cü il*

# "Azərbaycan Respublikasında 2015-ci il üçün ehtiyac meyarının həddi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında 2015-ci il üçün ehtiyac meyarının həddi haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasında 2015-ci il üçün ehtiyac meyarının həddi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. üç ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasında 2015-ci il üçün ehtiyac meyarının həddi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 22 dekabr 2014-cü il*

22son:Layout 1 27.12.2014 12:34 Page 4



## *“YAHOO.NEWS.CANADA”:* “BAKI AVROPA OYUNLARINA HAZIRDIR”



**“Bakı zəngin tarixə və çoxlu sayda görməli yerlərə malik çox gözəl şəhərdir”. Bu barədə “Yahoo.news. canada” saytında dərc edilmiş məqalədə deyilir.**

Məqalədə bildirilir: ”Şəhər neft investisiyalarının artımı və çoxsaylı beynəlxalq layihələrdən gələn gəlirlər sayəsində özünün sürətli inkişaf dövrünü yaşayır. İdman, tarixdə ilk Avropa Oyunlarını qəbul etməyə hazır olan şəhərin priotetlərindən biridir. Oyunların gələn il iyunun12-28-də keçirilməsi planlaşdırılır”.

Britaniya Olimpiya Assosiasiyasının sabiq icraçı direktoru, hazırda Azərbaycan paytaxtında Avropa Oyunlarına hazırlığa görə məsul şəxs bəyan edib ki, tədbirə hazırlığa görə narahat olmağa heç bir əsas yoxdur. Çünki yarışların keçiriləcəyi 18 obyektin əksəriyyəti hazırdır.

“Euronews” kanalının reportyoru Denis Kulikin süjetində qeyd edilir ki, “açılış və bağlanış mərasimlərinin keçiriləcəyi Olimpiya stadionu Avropa Oyunlarının simvoludur. Oyunlardan sonra o, Azərbaycan futbol yığması üçün ev arenası olacaq və “Avro 2020”-nin 4 oyununu qəbul edəcək”.

Məqalədə deyilir ki, stadion 68 min tamaşaçı üçün nəzərdə tutulub, layihənin dəyəri 500 milyon avrodan çoxdur. Layihənin baş mühəndisi Cavid Nəcəfov bildirib ki, işlər 2015-ci ilin fevralınadək tamamlanmalıdır: “Azərbaycanda bu iri tikinti çox qısa vaxt ərzində həyata keçirilib. Ətrafda gördüklərimizin hamısı cəmi iki il ərzində tikilib.”

Məqalədə qeyd edildiyi kimi, görünür, hətta Bakıdakı tıxaclar oyunların gedişinə mane ola bilməyəcək. Axı Londondakı Olimpiya Oyunlarında olduğu kimi, Bakıda da yalnız oyunların iştirakçıları və rəsmi şəxslərinin hərəkəti üçün xüsusi zolaqlar salınıb.

## *12,5 MİLYARD DOLLARA BAŞA GƏLƏCƏK*

Braziliya Hərbi Dəniz Qüvvələrinin inkişaf proqramı sayəsində donanmada 15 adi və 6 atom sualtı qayığı olacaqdır. Açıqlamanı HDQ-nin komandanı admiral Julio Suares de Moura verib. Qeyd edək ki, PROSUB adlandırılan proqrama, ümumilikdə 34 milyard real (12,5 milyard dollar) sərf etmək planlaşdırılır.

İnformasiyanı TASS verib.

## *Dənizlərə gözəllik verən gəmilərimiz*






## AVROPA VƏ ASİYANIN SƏRHƏDİ AZƏRBAYCANDAN KEÇƏCƏK

**Avropa və Asiya qitələrinin sərhədinin Azərbaycandan keçməsinin müəyyənləşdirilməsi və təsdiqi ilə bağlı tədbirlərin görülməsi üçün Nazirlər Kabineti və müvafiq qurumlara müraciət olunmuşdur. Bu barədə qərar Coğrafiya İnstitutunun təşkilatçılığı ilə “Avropa və Asiya qitələrinin sərhədi Azərbaycandan keçir” mövzusunda keçirilən elmi konfransda qəbul edilmişdir.**

Konfransın davamında Baş nazirin müavininin məktubu və qitələrin bölünmə əsaslarını nəzərə alaraq qərara gəlinmişdir ki, Avropa və Asiya qitələrinin sərhədinin Qafqaz bölgəsində Kuma-Manıç çökəkliyindən deyil, Baş Qafqaz sıra dağlarının suayırıcı xətti ilə Azərbaycandan keçməsi elmi əsaslara söykənən daha doğru variant hesab edilsin, Avropa və Asiya qitələrinin sərhədinin Azərbaycan ərazisindən, xüsusilə Abşeron yarımadasından keçən hissəsi yer səthində sahə mütəxəssislərinin iştirakı ilə dəqiqləşdirilsin və xəritəyə köçürülsün, AMEA Coğrafiya İnstitutu adından Beynəlxalq Coğrafiya İttifaqına Avropa və Asiya qitələrinin sərhədinə dair həmin ittifaqın 1964-cü ildə Londonda keçirilmiş XX konfransında qəbul olunan qərarında düzəliş olunması üçün müraciət edilsin, Avropa və Asiya qitələrinin sərhədinin Qafqaz və Azərbaycan ərazisindən keçən hissəsinin coğrafiya dərsliklərində və müxtəlif təyinatlı xəritələrdə düzəlişlər edilməsinə dair Təhsil Nazirliyinə və müvafiq təşkilatlara tövsiyələr verilsin, Avropa və Asiya qitələrinin sərhədinin Azərbaycan ərazisindən keçməsinin əyani sübutu kimi, həm də ilk Avropa Oyunlarının 2015-ci il iyun ayında Bakıda keçiriləcəyini nəzərə alaraq Abşeron yarımadasında, sərhəd xəttinin Bakı-Sumqayıt magistral xətti kəsişmə nöqtəsində arka-qapı kompleksinin tikilməsi məqsədəuyğun sayılsın və bu barədə Azərbaycanın Nazirlər Kabinetinə müraciət edilsin.

## *METRO GECƏ SAAT 1-Ə KİMİ İŞLƏYƏCƏK*

**Yeni il gecəsi Bakı Metropoliteninə giriş vaxtı 1 saat uzadılacaq. Belə ki, adi günlərdə sərnişinlərin metroya giriş vaxtı gecə saat 00.00-da bitir. Həmin gecə isə bayrama görə giriş gecə saat 1-ə kimi uzadılacaq.**

Dövlət səviyyəsində hər hansı böyük bir tədbir keçirilərsə və Bakı Metropoliteninə iş rejiminin uzadılması ilə bağlı əlavə təklif olarsa, bu müddət daha da artırıla bilər. Amma faktiki olaraq bayram gecəsi metroya giriş-çıxış vaxtının hələlik 1 saat uzadılması nəzərdə tutulur.



## ƏRAZİSİNİ 20 DƏFƏ GENİŞLƏNDİRƏ BİLƏR

**Danimarka və onun muxtariyyəti olan Qrenlandiya BMT yanında Dənizin Dibi üzrə Komissiyaya Arktikada öz ərazilərinin genişləndirilməsi ilə bağlı ərizə verib.**

Bununla da Danimarka Rusiya və Kanadanı qabaqlayaraq Şimal qütbünə hüququ olduğunu idda edən ölkələrdən birincisi oldu. Bu barədə “Financial Times” nəşri yazıb.

Danimarkanın xarici işlər naziri Martin Lideqorun bildirdiyi kimi, elmi məlumatların müəyyən etdiyinə görə, kontinental Qrenlandiya şelfi Arktik okeanın strukturu ilə birbaşa əlaqəlidir.

Xarici işlər nazirinin sözlərinə görə, bu struktur əlaqəsi ölkəyə Qrenlandiya sahillərindən şimala 900 min kilometr sahəyə iddialı olmağa əsas verir.

Rusiya Arktikada sərhədlərinin genişləndirilməsi üzrə BMT-nin Dənizin dibi üzrə Komissiyaya 2015-ci ilin yazında ərizə vermək niyyətində olub. Gələn il Kanada da potensial təbii ehtiyatlarla zəngin olan bu ərazilərə hüququ olduğunu təqdim etmək niyyətində idi.

“Financial Times” nəşrinin qeyd etdiyi kimi, Kopenhagen tərəfindən belə bir addımın atılması bu ölkənin Rusiya Federasiyası, Kanada və ABŞ ilə münasibətlərini xeyli pisləşdirə bilər.

Ekspertlər qeyd edirlər ki, Arktikanın dinc yolla mənimsənilməsinin sonu çatıb və bundan sonra gərginlik daha da artacaqdır.

Beynəlxalq hüquqa uyğun olaraq Şimal qütbü və ona bitişik Şimal Buzlu okeanı heç bir ölkəyə məxsus deyil. Lakin beş ölkə: Danimarka, Kanada, Norveç, Rusiya və ABŞ öz sahillərində 370 kilometrlik istisnasız iqtisadi zona hüququna malikdirlər.

Danimarkanın ərazisi üzunluğu təxminən 1800 kilometr təşkil edən Lomonosov yüksəkliyini tam əhatə edir. Danimarka geoloqlarının iddialarına görə, bu yüksəklik “qrenland şelfinin təbii davamıdır”.

Alimlərin fikrincə, Arktikada dünya neft ehtiyatının təxminən 13 və qazın isə 30 faiz yerləşir.

## SUALTI KƏŞFİYYAT QURĞUSU

**BBC-nin yaydığı məlumata görə, son illər hərbi qüdrətini daha da artıran Amerika Birləşmiş Ştatlarının hərbi dəniz qüvvələrinin mühəndisləri daha bir yeniliyə imza atıblar.**

Bildirilir ki, ABŞ hərbi dəniz qüvvələrinin mühəndisləri sualtı kəşfiyyat üçün nəzərdə tutulan robot-balığın sınağını keçiriblər. Mütəxəssislər qeyd edirlər ki, həmin layihənin dəyəri 1 milyon dollar təşkil edir.

Mənbənin məlumatına görə, uzunluğu 1,5 metr, çəkisi 45 kiloqram olan sualtı kəşfiyyat qurğusu xarici görünüşündən balığa bənzəyir, onun hərəkətlərini tam yamsılayır və səssiz üzə bilir. Nə pər, nə də reaktiv motorla təchiz edilməyən robot-balıq üzərkən yalnız quyruğundan istifadə edir. Onu həm məsafədən idarə etmək, həm də avtonom rejimə keçirmək olar.

Ekspertlər artıq gələn il həmin qurğunun ölkənin hərbi dəniz qüvvələrinin sərəncamına veriləbiləcəyini bildiriblər.

*E. ABBASOV*

## KANAL ÇƏKİLİR

**“Associated Press”in verdiyi məlumata görə, Nikaraquada Sakit okeanla Atlantik okeanı birləşdirən kanal çəkilir.**

Su yolunu Çinin “NKND Group”u çəkəcək. Bu kanal Panama kanalına alternativ olacaq. Nikaraqua lideri Daniel Ortera xalqa tele-müraciət edib. O bildirib ki, yeni layihə Nikaraquadakı iqtisadi vəziyyəti tam dəyişəcək. Prezident onu da bildirib ki, yeni kanal ətraf mühitə minimal ziyan vursa da, ölkənin milyonlarla sakini işlə təmin olunacaq.

Qeyd edək ki, yeni çəkilən kanalın uzunluğu 278 kilometr, eni 230-500 metr, dərinliyi isə 26-30 metr olacaq. İl ərzində buradan 5 min gəmi keçəcək.

22son:Layout 1 27.12.2014 12:34 Page 5



# DƏNİZDƏ TAKTİKİ TƏLİMLƏR KEÇİRİLİB

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2013-cü il 11 sentyabr tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının dəniz təhlükəsizliyi strategiyası"na əsasən Dövlət Sərhəd Xidməti dəniz sərhədlərinin etibarlı mühafizəsi, Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub bölməsində təhdidlərə qarşı effektiv mübarizə fəaliyyətinin təmin edilməsi və dənizdəki şəraitdən müfəssəl şəkildə xəbərdar olma, müasir texniki imkanlardan istifadə etməklə döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması istiqamətində zəruri tədbirləri davam etdirməkdədir.**



Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən AzərTAc-a bildiriblər ki, dekabrın 8-dən 11-dək "Dövlət Sərhəd Xidmətinin qüvvə və vasitələri tərəfindən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub bölməsində neft-qaz infrastrukturuna qarşı təhlükə yarandıqda sərhəd axtarışının təşkili, terror-təxribat qüvvələrinin aşkarlanması, raket-artilleriya qurğularından gecə və gündüz döyüş atışı ilə zərərsizləşdirilməsi və baxış əməliyyatlarının aparılması" mövzusunda taktiki təlimlər keçirilib.

Xəzər dənizində mümkün təhdidlərə qarşı hərbi hissə və bölmələrin birgə xidməti-döyüş və əməliyyat-taktiki hərəkət elementlərinin təkmilləşdirilməsi məqsədilə on taktiki epizod üzrə dörd mərhələdə keçirilən təlimlərdə: neft-qazçıxarma rayonlarının, platformaların, ixrac boru kəmərlərinin mühafizəsi və müdafiəsinin gündəlik şəraitdən fövqəladə şəraitə keçirilməsi və birgə sərhəd axtarışının aparılması, sorğuya cavab verməyərək neft platforması istiqamətində hərəkətini davam etdirən gəminin dayandırılması, çevik-hərəkət qrupunun helikopter vasitəsi ilə gəmiyə çıxarılması, şərti düşmənin terror-təxribat qrupunun zərərsizləşdirilməsi, dayandırılmış gəmiyə xüsusi axtarış vasitələri ilə baxış keçirilməsi və kütləvi qırğın silahlarının komponentlərinin, həmçinin narkotik vasitələrin aşkar edilməsi, sərhəd gözətçi gəmiləri tərəfindən şərti düşmənin terror-təxribat qrupunun qaranlıqda aşkarlanması və məhv edilməsi, şərti düşmənin sualtı təxribat qruplarının aşkarlanaraq zərərsizləşdirilməsi, helikopterlərin və sərhəd gözətçi gəmilərinin zenit-artilleriya qurğuları və raket komplekslərindən günün işıqlı və qaranlıq vaxtlarında döyüş atışlarının keçirilməsi kimi təlim tapşırıqları uğurla icra olunub.

Cari il iyulun 18-də Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin bazasında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin açılışını etdiyi "Gəmi inşası zavodunda" inşa olunmuş itisürətli və yüksək üzmə qabiliyyətinə malik, mükəmməl naviqasiya və radiotexnika avadanlıqları ilə, müasir silahlarla təchiz edilmiş iki yeni sərhəd gözətçi gəmisi təlimlərdə uğurla sınaqdan keçirilib və Azərbaycanın hərbi dəniz tarixində ilk dəfə zenit-artilleriya qurğuları və raket komplekslərindən gecə atışları müvəffəqiyyətlə yerinə yetirilib.

Təlimlərdə qarşıya qoyulan vəzifələr tam həcmdə icra olunub, şəxsi heyət möhkəm intizam, yüksək döyüş hazırlığı nümayiş etdirib.

Təlimlərin uğurlu yekunu münasibətilə Dövlət Sərhəd Xidmətinin rəisi-Sərhəd Qoşunlarının Komandanı, general-polkovnik Elçin Quliyev təlimə cəlb olunan şəxsi heyəti təbrik edib.

General-polkovnik Elçin Quliyev Xəzər dənizində dövlət sərhədlərinin etibarlı mühafizəsinin və neft-qaz hasilatı-daşınması infrastrukturunun təhlükəsizliyinin təmin edilməsinin Dövlət Sərhəd Xidmətinin əsas vəzifələri olmasını xüsusi vurğulayıb, Xəzər dənizində sərhəd mühafizə imkanlarının təkmilləşdirilməsi və şəxsi heyətin peşəkarlığının daha da artırılması istiqamətində hərbi hissə və bölmələr qarşısında konkret tapşırıqlar müəyyən edib.

Təlimlər zamanı yüksək peşəkarlıq nümayiş etdirən hərbi qulluqçular təltif olunublar.

## DÜNYA OKEANINDA 250 MİN TON MATERİAL ÜZÜR

**Böyük Britaniyanın Plimut Universiteti və Təbiətşünaslıq Muzeyindən olan tədqiqatçılar hesab edirlər ki, dəniz dərinlikləri özündə çoxlu miqdarda plastik tullantılar saxlayır. Onların elmi işi göstərib ki, dörd milyarda yaxın mikroskopik sintetik lif bütün dünya üzrə hər kvadratkilometr dərinsulu çöküntünü zibilləyə bilər.**

Tədqiqat işi Təbiətşünaslıq Muzeyindən olan Luisi Vudoll və onun İspaniya, Böyük Britaniya və Şotlandiyadan olan həmkarları ilə birlikdə Aralıq dənizi, Atlantik və Hind okeanlarından topladıqları çöküntüləri və mərcan nümunələri üzərində aparılıb.

Sintetik hissəciklərin analizi təsdiq edib ki, bütün nümunələrdə mikroplastiklərin miqdarı çoxluq təşkil edir (50 ml çöküntüdə 1,4-dən 40 hissəciyə qədər). Hissəciklərin ölçüsü, adətən uzunluğu 2-3 mm və diametri 0,1 mm-ə çatır, rəngləri isə birqayda olaraq, göy, qara, yaşıl və ya qırmızı olur.

Liflərin ümumi həcminin 56,9 faizini viskoz-şəxsi gigiyena əşyalarında və geyimdə istifadə edilən süni polimer təşkil edir. Qalanları isə poliefir, poliamid, asetat və akrildir.

Dərin məskunlaşma zonaları qlobal miqyasda 300 milyon kvadratkilometrdən çox olan sahədir. Tədqiqatçılar tərəfindən alınan məlumatlar dəniz mühitində bu hissəciklərin zərərli potensialının anlaşılması üçün böyük əhəmiyyətə malikdir.



Üzən plastik zibil vəhşi təbiətə, turizmə və gəmiçiliyə ziyan vuran qlobal problemdir. Bu tullantıları quşlar, balıqlar və digər canlılar yeyir ki, bu da çox vaxt onların məhvinə səbəb olur. Bununla belə, son illər ərzində keçirilmiş monitorinq plastik tullantıların dəniz səthində və ya sahil xətlərində kifayət qədər çoxaldığını nümayiş etdirməyib. Dünya okeanı səthində 250 min tona yaxın material üzür.

Əvvəllər güman edilirdi ki, plastik tullantılar heyvanlar və ya mikroorqanizmlər tərəfindən udula bilər, lakin sözügedən elmi iş göstərir ki, mikroplastik tullantılar okeanın dibinə çökür. Dəniz dibindəki lifin miqdarı, yəqin ki, dayaz sularda və sahil sularındakı tullantılara nisbətən dörd dəfə çoxdur.

**F. VƏLİYEV**

## Bu il Aralıq dənizində 3,5 min miqrant batıb



**2014-cü ilin yanvarından Şimali Afrika ölkələrindən ən azı 3419 insan Aralıq dənizindən Avropa ərazisinə qeyri-leqal yolla keçməyə cəhd edərkən həlak olub.**

"Trend" xəbər verir ki, bu barədə "Frans Press" BMT-nin Qaçqınların işləri üzrə Ali Komissarının İdarəsinə istinadən məlumat yayıb. Bu il 207 mindən çox miqrant Aralıq dənizini keçməyə cəhd göstərib ki, bu da "ərəb baharı" səbəbindən 70 mindən artıq insanın öz evini tərk etməyə məcbur olduğu 2011-ci ildə qeydə alınan ən yüksək göstəricidən 3 dəfə çoxdur. BMT-nin məlumatına görə, qaçqınların ümumi sayının 1/3-



dən çoxunu (təxminən 60 min) 2011-ci ilin martından vətəndaş müharibəsinin getdiyi Suriya vətəndaşları təşkil edir. Qanunsuz miqrasiya son illər Avropa İttifaqı (Aİ) ölkələri üçün olduqca kəskin problemə çevrilib. 2010-cu ildə afrikalı miqrantların Aİ-yə doğru yolunda əsas məntəqə olan Liviya, qeyri-leqal miqrasiyanı qanunla cinayətlər sırasına daxil edib. Məhz Liviyanın geniş Aralıq dənizi sərhədi hər il Avropa ölkələrinə hücum edən, iş və daha yaxşı həyat axtarışında olan minlərlə qanunsuz miqrant üçün yollanma nöqtəsidir.

## GƏMİ QƏZASI

Konqo Demokratik Respublikasında Tanqanika gölündə sərnişinlə dolu gəminin batması nəticəsində 129 nəfər həyatını itirib. Məlumata görə, ölənlər arasında azyaşlı uşaqlar və qadınlar çoxluq təşkil edir. 200-dən çox insan qəzadan xilas ola bilib. Qeyd edək ki, hadisənin başvermə səbəbi kimi, gəminin həddən artıq yüklənməsi göstərilir.

*Xəbəri "Lenta.ru" verib.*

## *Gələn ilin ən dəbli rəngi*

***"Pantone" Rəng İnstitutu 2015-ci ilin ən aktual rəng çalarının adını açıqlayıb. Bu barədə məlumat Rəng İnstitutunun saytında yer alıb.***

Ekspertlərin fikrincə, "marsala" adlı tünd qırmızımtıl-qəhvəyi rəng qarşıdan gələn ilin ən dəbli rəngi olacaq. 2015-ci ilin əsas rənginin adı Siciliyada eyniadlı desert şərabın adından götürülüb.

Məlumatda deyilir ki, "marsala dadlı naharın ləzzətini təcəssüm etdirir, onun qırmızımtıl-qəhvəyi çaları isə incəlik və təbiilik bəxş edir. Rəng İnstitutunun icraçı direktoru Leatris Aysman bildirib ki, marsala çaları "özünəinamın və sabitliyin" təcəssümü olmaqla bərabər, "cana yayılan istiliyi ilə" cəlb edir.

Qeyd edək ki, "Pantone" 2000-ci ildən ən aktual rəng çalarlarının müəyyən olunması sahəsində tədqiqatlar aparmaqla məşğuldur. Koloristlərin məsləhətlərini dəb, kosmetologiya, qrafik və interyer dizaynı sahələrinin mütəxəssisləri dinləyirlər. "Pantone" ilin rəngini seçmək üçün müxtəlif trendləri və hadisələri - kino sənayesinin yeniliklərini, incəsənət əsərləri kolleksiyalarını, populyar turizm istiqamətlərini, sosial və iqtisadi hadisələri təhlil edir. Nəticədə analitiklərin fikrincə, alıcıların əhval-ruhiyyəsini və baxışlarını özündə əks etdirən rəng müəyyənləşir. "Pantone" versiyasına görə, "parlaq orxideya" 2014-cü ilin, zümrud 2013-cü ilin, "naringi tanqo" 2012-ci ilin ən aktual rəngləri olub.

22son:Layout 1 27.12.2014 12:34 Page 6



*İlham MƏMMƏDOV*

# Rusca-İngiliscə-Azərbaycanca dənizçilik terminlərinin izahlı lüğəti

*(Əvvəli ötən nömrələrimizdə)*

### Диспаша — Dispaş
### AVERAGE ADJUSTMENT, AVERAGE STATEMENT

Расчет убытков по общей аварии и распределение их между участниками перевозки соразмерно стоимости судна, фрахта и груза. Составление диспаши, так же как и установление самого факта наличия общей аварии, производится диспашерами. Диспаша составляется по заявлению любого лица (судовладельца, грузовладельца, страховщика), заинтересованного в распределении общеаварийных убытков. В ней указываются доля общеаварийных расходов, причитающихся с судна, груза и фрахта, лица, обязанные уплатить соответствующие суммы, а также лица, имеющие право на возмещение общеаварийных убытков с учетом уже произведенных ими расходов. За составление диспаши взимается плата, сумма которой включается в общую аварию, и, как общеаварийные убытки, распределяется между участниками общей аварии.

Ümumi qəza üzrə zərərlərin hesablanması və yükdaşıma iştirakçıları arasında gəminin, fraxtın və yükün dəyərlərinə müvafiq olaraq bölüşdürülməsi. Dispaşın tərtibi də, ümumi qəzanın mövcudluğu faktının müəyyənləşdirilməsi kimi, dispaşerlər tərəfindən həyata keçirilir. Dispaş ümumqəza zərərlərinin bölüşdürülməsində maraqlı olan istənilən şəxsin (gəmi sahibinin, yük sahibinin, sığortaçının) ərizəsi üzrə tərtib edilir. Burada gəmidən, yükdən və fraxtdan çatası ümumi qəza xərclərinin payı, müvafiq məbləğləri ödəməli olan şəxslər, habelə artıq çəkmiş olduğu xərcləri nəzərə almaqla ümumqəza zərərlərinin əvəzinin ödənilməsi hüququna malik olan şəxslər qeyd edilir. Dispaşın tərtib edilməsinə görə haqq alınır, bu haqq ümumi qəzaya daxil edilir və ümumqəza zərərləri kimi, 10 ümumi qəzanın iştirakçıları arasında bölüşdürülür.

### Длинная тонна — Uzun ton
### LONG TON

Равная 2240 фунта, т.е. 1016 кг.

2240 funta, yəni 1016 kq-a bərabər olan ölçü vahidi.

### Длинномеры и тяжеловесы — Uzunölçülü və ağırçəkili yüklər
### LONG AND HEAVY GOODS

Грузовые места, длина и масса которых превышают максимальные размеры и массу грузовых мест, устанавливаемые правилами и применением тарифов. В большинстве случаев перевозка длинномерных и тяжеловесных грузов требует приспособлений. За длинномерные и тяжеловесные грузы обычно платится надбавка к фрахту.

Uzunluqları və kütlələri müvafiq qaydalarla və tariflərin tətbiqi ilə müəyyənləşdirilən yük yerlərinin maksimum ölçülərindən və kütlələrindən artıq olan yük yerləri. Uzunölçülü və ağırçəkili yüklərin daşınması bir çox hallarda mexanizmlər tələb edir. Belə yüklərə görə adətən fraxta əlavə haqq ödənilir.

### Доверенность — Vəkalətnamə
### POWER OF ATTORNEY, PROXY

Полномочие одного лица (доверителя), выдаваемое им другому к лицу (поверенному) на совершение и действий от его имени. По содержанию доверенность предусматривает совершение поверенным разнообразных юридических действий (например, управление имуществом); различаются доверенности специальные - на совершение определенных действий и разовые, предусматривающие совершение какого-либо однократного действия. При отмене доверенности (если она не отобрана у поверенного) должны быть поставлены в известность третьи лица, с которыми поверенный может совершить сделку по отмененной доверенности. При несоблюдении этого требования ответственность перед третьими лицами за убытки, возникшие в результате неисполнения сделки, заключенной поверенным, несет доверитель.

Bir şəxsin (vəkalət verən) səlahiyyətinin digər şəxsə (vəkalət alan, müvəkkil) onun adından fəaliyyət göstərmək üçün verilməsi. Vəkalətnamə məzmununa görə müvəkkil tərəfindən müxtəlif hüquqi fəaliyyətin (məsələn, əmlakı idarəetmə) həyata keçirilməsini nəzərdə tutur; vəkalətnamələr xüsusi və birdəfəlik olur. Xüsusi vəkalətnamələr müəyyən işlərin görülməsi üçün, birdəfəlik vəkalətnamələr isə hər hansı birdəfəlik işin həyata keçirilməsi üçündür. Vəkalətnamə ləğv edildikdə (əgər müvəkkildən geri alınmayıbsa), bu barədə məlumat müvəkkilin ləğv olunmuş vəkalətnamə üzrə müqavilə bağlaya biləcəyi üçüncü şəxslərə verilməlidir. Bu tələbə riayət edilmədikdə, müvəkkilin bağladığı müqavilənin icra olunmaması nəticəsində yaranmış zərərə görə məsuliyyəti üçüncü şəxslər qarşısında vəkalət verən daşıyır.

### Договор морского страхования — Dəniz sığorta müqaviləsi
### CONTRACT OF MARINE INSURANCE

Договор, по которому одна сторона (страховщик) принимает на себя за обусловленное вознаграждение (страховую премию) обязанность возместить убытки другой стороны (страхователя), произошедшие вследствие предусмотренных договором морского страхования опасностей или случайностей (страхового случая), которым подвергается застрахованное судно или груз. Объектом морского страхования может быть всякий связанный с торговым мореплаванием имущественный интерес, то есть судно, груз, фрахт, плата за проезд, арендная плата, ожидаемая от груза прибыль и иные требования, обеспечиваемые судном, грузом и фрахтом, заработная плата и другие виды вознаграждения лиц судового экипажа, а также риск, принятый на себя страховщиком (перестрахование). Во всех случаях наличие и содержание договора морского страхования могут быть доказаны исключительно письменными документами - полисом, страховым сертификатом и т.п. Для заключения договора морского страхования страхователь должен подать письменное заявление, в котором обязан сообщить точные сведения о предмете страхования. При страховании груза, наряду с обстоятельством, характеризующим степень риска, в заявлении должны быть приведены следующие сведения о грузе: наименование, число мест, масса и род упаковки; номера и даты перевозочных документов; название, тоннаж, флаг и год постройки судна, на котором перевозится груз; способ транспортировки (в трюме или палубе, навалом, насыпью, наливом), пункты отправления, перевалки и назначения груза, дата его отправки, страховая сумма и условия страхования.

Bu müqavilə üzrə bir tərəf (sığortaçı) şərtləşdirilmiş haqq müqabilində (sığorta mükafatı) dəniz sığorta müqaviləsində nəzərdə tutulan təhlükələr və hadisələr (sığorta hadisəsi) nəticəsində sığortalanmış gəminin və ya yükün məruz qaldığı zərərin əvəzini digər tərəfə (sığortalıya) ödəməyi öz öhdəsinə götürür. Dəniz sığortasının obyekti ticarət gəmiçiliyi ilə bağlı olan hər cür əmlak marağı ola bilər, yəni - gəmi, yük, fraxt, gedişə görə ödənilən haqq, icarə haqqı, yükdən gözlənilən mənfəət və gəmi, yük, fraxt ilə təmin edilən digər tələblər, əmək haqqı və gəmi heyəti üzvlərinə verilən mükafatların digər növləri, habelə sığortaçının öz üzərinə götürdüyü risk (təkrar sığorta). Bütün hallarda dəniz sığorta müqaviləsinin mövcudluğu və məzmunu yalnız yazılı sənədlərlə - sığorta şəhadətnaməsi, sığorta sertifikatı və s. ilə sübut edilə bilər. Dəniz sığorta müqaviləsinin bağlanması üçün sığortalı yazılı ərizə verməlidir, burada sığorta obyekti haqqında dəqiq məlumatları göstərməyə borcludur. Yükləri sığortalayarkən, riskin dərəcəsini səciyyələndirən şəraitlə yanaşı, ərizədə yük haqqında aşağıdakı məlumatlar da verilməlidir: adı, yerlərin sayı, kütləsi və qablaşdırmanın növü; daşınma sənədlərinin nömrəsi və tarixi; yükün daşındığı gəminin adı, tonnajı, bayrağı və inşa edildiyi il; daşınma üsulu (anbarda və ya göyərtədə, qalaq şəklində, səpilmiş halda (qabsız), maye halında), yükün göndərilmə, aşırılma və təyinat məntəqələri, onun yola salınma tarixi, sığorta məbləği və sığorta şərti.

### Договор о спасании — Xilasetmə haqqında müqavilə
### SALVAGE CONTRACT

Соглашение, заключаемое между судовладельцем или капитаном терпящего бедствие судна и спасателем - судовладельцем или капитаном другого судна, спасательного буксира и т.п. об оказании помощи на море. В договоре о спасании обычно оговаривается характер помощи, в которой нуждается терпящее бедствие судно, порядок разрешения споров, а в некоторых случаях и размер вознаграждения. В договоре также предусматривается право спасателя безвозмездно и надлежащим образом пользоваться механизмами, цепями, якорями и др. приспособлениями спасаемого судна. Во всех случаях по договору о спасании спасатель пользуется правом вознаграждения лишь в том случае, если его действия по спасанию судна, груза и фрахта имели полезный результат. Если действие не дало полезного результата, вознаграждение не уплачивается - принцип: «Без спасения - нет вознаграждения»(«po cure, no rau») .

Fəlakətə uğrayan gəminin sahibi və ya kapitanı ilə xilas edən - digər gəminin, xilasedici yedək gəmisinin və s. sahibi və ya kapitanı arasında dənizdə köməyin göstərilməsi haqqında bağlanılan müqavilə. Xilasetmə haqqında müqavilədə adətən fəlakətə uğrayan gəminin ehtiyacı olduğu köməyin xarakteri, mübahisələrin həlli qaydaları, bəzi hallarda isə mükafatın miqdarı da şərtləşdirilir. Müqavilədə həmçinin xilas edənin xilas edilən gəminin mexanizmlərindən, zəncirlərindən, lövbərlərindən və digər alətlərindən pulsuz və lazımi qaydada istifadə etmək hüququ da nəzərə alınır. Xilasetmə haqqında müqaviləyə görə bütün hallarda xilas edən mükafat almaq hüququndan yalnız o halda istifadə edir ki, gəminin, yükün və fraxtın xilası ilə bağlı fəaliyyəti faydalı nəticə vermis olsun. Fəaliyyət faydalı nəticə vermədikdə, «xilasetmə olmadan mükafat yoxdur» («po cure, no rau») prinsipinə görə mükafat ödənilmir.

### Договор фрахтования судна — Gəmini fraxtetmə müqaviləsi
### CONTRACT OF AFFREIGHTMENT

Соглашение, заключаемое между судовладельцем и фрахтователем о найме судна для выполнения одного или нескольких конкретных рейсов или его найме (тайм чартер) на время. В зависимости от условий фрахтования судов, договор обычно оформляется рейсовым чартером, тайм-чартером либо димайз-чартером.

Gəmi sahibi ilə fraxtedən arasında bir və ya bir neçə konkret səfərin icra edilməsi və ya gəmının müəyyən müddətə istifadəyə götürülməsi barədə (taym carter) bağlanılan müqavilə. Gəmilərin fraxtedilmə şərtlərindən asılı olaraq, müqavilə adətən reys çarteri, taym-çarter və ya dimayz-carter şəklində rəsmiləşdirilir.

*(Davamı var)*



## İngiltərədə Məhəmməd adı ən populyar ad olub

Sona yetən 2014-cü ilin nəticələrinə görə Birləşmiş Krallıqda yeni doğulan oğlanlara ən çox Məhəmməd adı qoyulub. AzərTAc Vesti.ru saytına istinadla xəbər verir ki, bu barədə hər il müvafiq statistika dərc edən Britaniyanın Baby-Centre kompaniyası məlumat yayıb. Əvəllər yalnız Londonda populyar olan bu ad hazırda bütün ölkədə ən çox istifadə edilən addır. BabyCentre kompaniyasının "Top 100" siyahısında keçən illə müqayisədə 27 pillə irəliləyən Məhəmməd adının Britaniya üçün ənənəvi olan Cek, Harri, Çarli və Ceyms kimi adları da arxada qoyduğunu qeyd edir. Ömər, Əli və ya İbrahim kimi adlara oğlan uşaqları ilə yanaşı, qızlar arasında da rast gəlmək olur. Redşounun sözlərinə görə, bu il yüzlüyə ilk dəfə ərəb ölkələrində geniş yayılmış Nur daxil olub. Məryəm adı isə siyahıda tutduğu yeri yaxşılaşdırıb. Buna baxmayaraq, ərəb mənşəli qadın adları Sofiya, Emili, Lili kimi Britaniya üçün ənənəvi adlarla rəqabət apara bilmir.

## "Titanik"lə bağlı sərgi



Almaniyanın Şpayer şəhərindəki Tarix muzeyində 1912-ci ildə qəzaya uğrayaraq batmış "Titanik" gəmisindən tapılmış əşyaların sərgisi açılıb. Ekspozisiyada seyf qapısı, eynək, əlüzyuyan da daxil olmaqla 250-yə yaxın əşya vardır. 1,8 min kvadratmetr sərgi salonunda faciəni əks etdirən çoxsaylı fotoşəkillər nümayiş etdirilir.

***Məlumatı "Alman dalğası" yayıb.***

22son:Layout 1 27.12.2014 12:34 Page 7



# DÜNYA YENİ İLİ NECƏ QARŞILAYIR

*Yeni il dünya xalqlarının ən səbirsizliklə gözlədikləri və böyük ümidlər bəslədikləri bayramdır. Ona görə, hər bir ölkə bu bayrama böyük həvəslə hazırlaşır. Tarixən belə olub və ötüb keçən əsrlər ərzində hər xalqın özünün Yeni il ənənələri formalaşıb.*

## ALMANİYA

Almanlar Yeni il bayramında o qədər şən, mehriban olurlar ki, onların sakit və çox təmkinli olmaları barədə fikirlərə inanmaq olmur. Bayram gecələrində xəyalpərəst alman gəncləri ürəklərində niyyət tuturlar. Hətta bu məqsədlə Nürnberq şəhərinə gedənlər də tapılır. Belə ki, bu şəhərin mərkəzində çox yaraşıqlı bir fəvvarə var. Deyilənə görə, bu fəvvarəni Almaniyada məşhur bir ailənin yeganə



qızına bir könüldən min könülə vurulmuş çox istedadlı memar inşa etdirib. Fəvvarə ornamentlərlə bəzədilmiş çuqun barmaqcıqlarla dövrələnib. Rəvayətə görə, bu barmaqların birində iki qızıl üzük gizlədilib.

Yeni il axşamı ziyarətə gələn alman qızları niyyət tutub, fəvvarənin başına saat əqrəbi istiqamətində fırlanırlar. Gənc oğlanlar isə bu gözəl qızları oğrun-oğrun süzür, gözləri tutan gözələ necə yaxınlaşmaq barədə düşünürlər.

Almanların Yeni il bayramında süfrələrini adətən rəngbərəng almalar və fındıq bəzəyir. Bu xalqın inancına görə, alma xeyirin rəmzidir, fındığı isə sındırıb "həzm-rabedən" keçirməklə növbəti ildəki çətinliklərdən qurtulmaq olar.

## İSPANİYA

İspaniyada bayram günü hamı şəhərin mərkəzi meydanlarına axışır, burada kütləvi şəkildə üzüm yeməyə başlayırlar. Hər kəs müəyyən vaxt ərzində ilin 12 ayını təmsil edən 12 salxım üzüm yeməlidir. İspanların qədim ənənələrindən biri də ondan ibarətdir ki, bayram axşamı küçələrdə müxtəlif tələlər qurulur. Bu, onun üçündür ki, pis qüvvələr köhnə ildə ilişib qalsın, yeni ilə keçə bilməsinlər.

## AVSTRİYA

Avropa ölkələrindən olan Avstriyada maraqlı ənənələr formalaşıb. Bu ölkədə hələ qədimlərdən Yeni il bayramının xeyirxah obrazları bacatəmizləyən və donuzdur. Baxmayaraq ki, donuzun əti bayram süfrələrində iştahla həzm-rabedən keçirilir. Qədim zamanlarda bacatəmizləyən küçədə görünən kimi, insanlar onun arxasınca qaçıb hisə bulaşmağa çalışırlarmış. Bu, guya, Yeni ilin xoşbəxtlik gətirəcəyinə işarə imiş.

## BRAZİLİYA

Yeni illə bağlı qədim ənənələrə malik ölkələrdən biri də Braziliyadır. Bu ölkədə Yeni il toplardan açılan atəşlərlə qarşılanır. Atəş səsi eşidilən kimi, hamı bir-birini qucaqlayıb öpməyə başlayır. İnsanlar inanırlar ki, atəş anında özlərinə əziz hesab etdikləri bir adamı qucaqlayıb öpməyə macal tapanlar, Yeni ildə xoşbəxt olacaqlar.

## ÇİN

Çində də bayram günü böyük səs-küy və atəşfəşanlıqla keçir. Bununla çinlilər Yeni ilin gəlişinə mane olan şər qüvvələri özlərindən uzaqlaşdırdıqlarını düşünürlər.

## FİNLANDİYA

Finlər Yeni ili deyib-gülməklə, yeyib-içməklə qarşılamağı çox sevirlər. Hətta, Şaxta babanın onların həmvətənləri olduğunu iddia edirlər. Axı, Avropada geniş yayılmış inanclara görə, Şaxta baba qütb dairəsində, "Laplandiya" adlanan möcüzəli bir yerdə yaşayır. Finlandiya sakinləri Laplandiyanın məhz öz ölkələrinin ərazisində yerləşdiyini güman edirlər.

Finlandiyada Yeni ili əslində dekabrın 25-dən, yəni Milad bayramı günündən qarşılamağa başlayırlar. Dekabrın 31-dən isə paytaxt Helsinkidə nağıl və əsatir qəhrəmanlarının libaslarını geymiş aktyorlar teatr mərkəzləri təşkil edirlər. Həmin gecə ağ, uzun saqqallı, qırmızı papaqlı, əlində xurcun tutan Şaxta baba şimal maralları qoşulmuş xizəkdə Helsinkinin mərkəzi meydançasına daxil olur. Ətrafda alqış sədaları qopur. Şən mahnılar, gülüş səsləri hər yeri bürüyür. Bayram gününü Helsinkidə keçirən əcnəbi qonaqlar etiraf edirlər ki, Finlandiya paytaxtında Yeni ili həqiqətən yaddaqalan tərzdə keçirməyi bacarırlar.

## HOLLANDİYA

Hollandların ulu babalarının dünyanın məşhur səyyahları olmaları hər kəsə məlumdur. Dəniz səyahətləri ilə bağlı rəvayətlər hollandların adət və ənənələrinə də hopubdur. Burada uşaqları inandıra biliblər ki, Yeni ildə Şaxta baba soyuq dənizlərdən üzüb gələn gəmidə təşrif buyurur. Buna görə, Hollandiyanın sahil şəhərlərində Yeni il axşamı adam əlindən tərpənmək olmur. Uşaqlar Şaxta babanı valideynləri ilə bərabər, limanlarda qarşılayırlar. Gəmi sahilə yan alır. Şaxta baba onu burada səbirsizliklə gözləyən uşaqlara çoxlu sovqat paylayır. Uşaqlar da Şaxta babanın qarşısında şeirlər söyləyir, mahnılar oxuyur, rəqs edirlər.

Yeni il bayramı günlərində paytaxt Amsterdam çox qonaq-qaralı olur. Hollandlar bayramda süfrələrini ləziz şirniyyatlarla, bahalı şərablarla bəzəməyi sevirlər.

## POLŞA

Yeni il polyakların da sevimli bayramıdır. Polyaklar Şaxta babanı Silvester Klaus adlandırırlar. Bu həmin Silvester adlı məşhur nağıl qəhrəmanıdır ki, o, Levifian adlı vəhşiyə qələbə çalaraq, insanları dəhşətli bəladan xilas edib.

Yeni il axşamı Polşa paytaxtında məşhur Seçenka heykəlini ziyarət etməyi xoşlayırlar. Seçenka balıq quyruqlu qadın heykəlidir. Rəvayət edirlər ki, Seçenka adlı bir gözəl gənc qadın yerli balıqçıları qəsbkarların qəfil hücumlarından öz həyatını təhlükə qarşısında qoyaraq xilas edib. Polyaklar bu xanımın cəsarətini minnətdarlıq hissi ilə xatırlamağı özlərinə borc bilirlər.

Milad bayramı başlayandan Yeni ilin ilk gününə qədər gənc polyaklar Seçenkanın "quyruğuna" əl sürtməyə çalışırlar ki, təzə ildə arzularına çatsınlar. Ancaq "quyruqlu gözələ" toxunmaq o qədər də asan deyil. Məsələ burasındadır ki, Seçenkanın heykəli hər tərəfdən çoxsaylı fəvvarələrin əhatəsindədir. Ən soyuq qış günlərində də bu fəvvarələrdən su fışqırır. Ancaq məhəbbət dəryasında üzən gənclər fəvvarələrin soyuq sularının fərqinə varmırlar. Aşiqlərin isə dünyanın hər yerində bircə arzusu var ki, o da vüsala tez yetişməkdir.

## İTALİYA

İtalyanlar bayramı qırmızı paltarda qarşılamağı sevirlər. Təzə ilin möcüzələrlə dolu olacağına ürəkdən inanırlar. İtaliyada qədimdən belə bir əfsanə yaşayır ki, Yeni il gecəsi bu ölkədə dağ çaylarının biri dayanıb qızıla dönür. Buna görə, italyanlar təzə ilin ilk günlərindən al paltarlar geyinirlər ki, evlərindəki ruzu- bərəkət artsın.

İtalyanların Yeni il süfrəsində çoxlu mövüc olur. Qədim Romada deyirdilər ki, üzüm şirəsində həyat eşqi var. Bir az çılğın, bir az da səs-küylü həyat tərzinə vərdiş etmiş italyanlar bayramı doğmalarının əhatəsində qeyd etməyə çalışırlar.

## FRANSA

Avropa ölkəsi olan Fransada Şaxta baba Per Noel, yəni Noel ata adlanır. O, Yeni il gecəsi hamı yatdıqdan sonra gizlincə gəlir və evin balaca sakinlərinin başmağına hədiyyələr qoyur. Böyüklərsə bayram günü daha çox yeyib-içməyi sevirlər.

Fransanın şərab ölkəsi olduğunu nəzərə alsaq, vəziyyəti təsəvvür etmək çətin deyil. Böyüklər də bu bayramda hədiyyəsiz keçinmirlər. Ümumiyyətlə, bu ölkədə Yeni ilin ən maraqlı tərəfi hədiyyələrdir. Amma burada bir qədər diqqətli olmaq lazımdır. Hər hədiyyəni hər adama vermək olmaz. Məsələn, bu bayramda qadının öz ərindən başqa kimdənsə ətir qəbul etməsi yaxşı qarşılanmır.

## QRENLANDİYA

Ən maraqlı bayram hədiyyələrini isə Qrenlandiya eskimosları bir-birinə bağışlayırlar. Bu, morjların və ağ ayıların buzdan yonulmuş fiqurlarıdır. Qrenlandiya- dakı hava şəraiti bu hədiyyələri uzun müddət saxlamağa imkan verir.




## ISVEÇRƏ

İsveçrədə insanlar bir-birinə şam hədiyyə edirlər ki, bu da dostluğun və sevincin rəmzidir. Bayram axşamı isə ailə başçısı-ata zibil atmaq bəhanəsiylə evdən çıxır və Yul Tomten (Şaxta baba) obrazında qayıdır, uşaqlara hədiyyələr paylayır.

## BÖYÜK BRİTANİYA

Bayram günü evdə ideal təmizlik və qayda-qanun hökm sürməlidir. Gecə düşərkən ailənin başçısı illərin yerinin dəyişməsi üçün evin bütün qapılarını geniş açır. Daha sonra qapılar bağlanır, hamı həyəcan və səbirsizliklə evə ilk girəcək qonağı gözləyirlər. İnanca görə, ilin necə keçəcəyi içəri ilk girən adamın kimliyindən asılıdır. Qadınlar - sarışınlar və əsmərlər o qədər də arzuolunan deyillər. Ən ayağı sayalı qonaq kürən kişi hesab olunur. Çatmaqaş adamın gəlişinə qarşı isə o dəqiqə ehtiyat tədbirləri görülür. Ocağa duz atılır, qapıdan xaç asılır. Qonaq özüylə viski, şirin çörək və kömür gətirməlidir. Sonuncunu ocağa atırlar ki, ailənin ocağı daim gur yansın.

## YAPONİYA

Yaponiyada bayram günü Budda məbədlərindəki bütün zənglər 108 dəfə çalınır. Bu rəqəm təsadüfi seçilməyib. Yaponlar hesab edirlər ki, hər zəng insan həyatını məhv etməyə qadir olan 108 ziyanlı ehtirasdan birini qovur. Beləcə, gündoğar ölkənin sakinləri Yeni ili təmiz ruhla qarşılayırlar.

## GÖZƏL YOLKA, ŞƏN YOLKA

Yeni il bayramını yaşıl donlu, bərbəzəkli yolkasız təsəvvür etmək qeyri-mümkündür.



Əlbəttə, bu yolkanın yarpaqları xoş ətir saçan təbii küknar ağacından olması daha arzuolunandır. Amma təbiəti qorumaq xətrinə süni yolkalarla da keçinmək olar. Bəs, Yeni il bayramında yolka bəzəməyin mənası nədir? Bir çoxları yolka bəzəmək ənənəsini xristian diniylə bağlayır. Əslində isə həyat rəmzi olan yolkanın bəzədilməsi tarixi xristianlıqdan əvvəl başlayıb və hər hansı dinlə bağlı deyil. Hələ Miladdan çox-çox əvvəl qədim Misirin sakinləri dekabrın ən qısa günlərində yaşıl palma ağaclarını evlərinə gətirərmişlər. Bu, həyatın ölüm üzərində qələbəsinin rəmzi idi. Romalılar isə əkin allahının şərəfinə evlərini yaşıl yarpaqlarla bəzəyirlərmiş. Druidlər palıd budaqlarına qızıl almalar asıb qış bayramını qeyd edərlərmiş. Orta əsrlərdə qırmızı almalarla bəzədilmiş həmişəyaşıl ağaclar dekabrın 24-də qeyd edilən Adəm və Həvva bayramını təmsil edərmiş. Yeni il yolkası haqda ilk yazılı məlumat XVI əsrə təsadüf edir. Həmin mənbələrə görə, o vaxt alman şəhəri olan Strasburqda Yeni il gecəsi həm kasıb, həm də adlı-sanlı zadəgan ailələrində şam ağacları rəngli kağızlar, meyvələr və şirniyyatla bəzədilirmiş. Zamanla bu adət bütün Avropaya yayılır. Yeni dünyaya - Amerikaya yolkanı almanlar gətiriblər. 1851-ci ildə bu ölkədə ilk dəfə təntənəli şəkildə yolka fənərlərinin yandırılması mərasimi keçirilib. O vaxtdan hər Yeni il bayramında Ağ evin qarşısında bu mərasim keçirilir. Yolka beləcə bütün dünyada məşhurlaşıb.

22son:Layout 1 27.12.2014 12:34 Page 8





# TƏQVİM 2015



| | YANVAR | FEVRAL | MART | APREL | MAY | İYUN | |
|---|---|---|---|---|---|---|---|
| Be | 5 12 19 26 | 2 9 16 23 | 2 9 16 23 30 | 6 13 20 27 | 4 11 18 25 | 1 8 15 22 29 | Be |
| Ça | 6 13 20 27 | 3 10 17 24 | 3 10 17 24 31 | 7 14 21 28 | 5 12 19 26 | 2 9 16 23 30 | Ça |
| Ç | 7 14 21 28 | 4 11 18 25 | 4 11 18 25 | 1 8 15 22 29 | 6 13 20 27 | 3 10 17 24 | Ç |
| Ca | 1 8 15 22 29 | 5 12 19 26 | 5 12 19 26 | 2 9 16 23 30 | 7 14 21 28 | 4 11 18 25 | Ca |
| C | 2 9 16 23 30 | 6 13 20 27 | 6 13 20 27 | 3 10 17 24 | 1 8 15 22 29 | 5 12 19 26 | C |
| Ş | 3 10 17 24 31 | 7 14 21 28 | 7 14 21 28 | 4 11 18 25 | 2 9 16 23 30 | 6 13 20 27 | Ş |
| B | 4 11 18 25 | 1 8 15 22 | 1 8 15 22 29 | 5 12 19 26 | 3 10 17 24 31 | 7 14 21 28 | B |

| | İYUL | AVQUST | SENTYABR | OKTYABR | NOYABR | DEKABR | |
|---|---|---|---|---|---|---|---|
| Be | 6 13 20 27 | 3 10 17 24 31 | 7 14 21 28 | 5 12 19 26 | 2 9 16 23 30 | 7 14 21 28 | Be |
| Ça | 7 14 21 28 | 4 11 18 25 | 1 8 15 22 29 | 6 13 20 27 | 3 10 17 24 | 1 8 15 22 29 | Ça |
| Ç | 1 8 15 22 29 | 5 12 19 26 | 2 9 16 23 30 | 7 14 21 28 | 4 11 18 25 | 2 9 16 23 30 | Ç |
| Ca | 2 9 16 23 30 | 6 13 20 27 | 3 10 17 24 | 1 8 15 22 29 | 5 12 19 26 | 3 10 17 24 31 | Ca |
| C | 3 10 17 24 31 | 7 14 21 28 | 4 11 18 25 | 2 9 16 23 30 | 6 13 20 27 | 4 11 18 25 | C |
| Ş | 4 11 18 25 | 1 8 15 22 29 | 5 12 19 26 | 3 10 17 24 31 | 7 14 21 28 | 5 12 19 26 | Ş |
| B | 5 12 19 26 | 2 9 16 23 30 | 6 13 20 27 | 4 11 18 25 | 1 8 15 22 29 | 6 13 20 27 | B |

1, 2 yanvar Yeni il bayramı
20 yanvar Ümumxalq hüzn günü
8 mart Beynəlxalq Qadınlar günü
20-24 mart Novruz bayramı
9 may Faşizm üzərində Qələbə günü
28 may Respublika günü
15 iyun Milli Qurtuluş günü
26 iyun Azərbaycan Silahlı Qüvvələri günü
17, 18 iyul Ramazan bayramı
24, 25 sentyabr Qurban bayramı
9 noyabr Dövlət Bayrağı günü
31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi günü

## YARIZARAFAT, YARIGERÇƏK

- O yerdə ki, ağıllı söz keçmir, ordan heç özünüz də keçməyin.
- Haqq ancaq kasıbla vuruşda qalib gəlirsə, mənə o haqq gərək deyil.
- "Ekstra" duzu çox bahadır? Deyirəm yaramın üstünə heç olmasa "Ekstra" duzu bassınlar.
- Ümid edək ki, ümid yaşadıqca, dünya dağılmayacaq.
- Adamın yekəbaşlığını görmək üçün başına yox, əməllərinə baxmaq lazımdır.
- Ağlım kəsəndən ağlımın kəsdiyi şeylərdə yaxşı heç nə görmədim.
- Yaxşı nəyəsə başlamayacaqsansa, gördüyün hər işə nöqtə qoymağa tələsmə.
- Bəzi kişilərə baxanda sevinirəm ki, nə yaxşı qadınlar kişilərdən çoxluq təşkil edirlər.
- Allahın razı olmadığı adamlar özlərindən niyə bu qədər razıdırlar?
- Yalan-doğru, deyirlər ki, gələn ildən yaltaqlıq, satqınlıq və ara vurmaq işə keçməyəcək. Gör nə qədər adam ac qalacaq e...
- Dayısı olanlar vəzifə, ayısı olanlar armud davası edirlər.
- Allah hər kəsə gözləri görmək, qulaqları eşitmək üçün veribsə, başı da yəqin ki, işlətmək üçün verib. Elə deyil?
- Riyaziyyatı bilməyə bilərsən, amma bu sənə haqq vermir ki, hesabı da qarışdırasan.
- Aşağıdan qorxduqları üçün çox adam yuxarıdan gedir?
- Daş atıb başını nə vaxt tuturlar? Daş, yoxsa baş ucuz olanda?
- Deyirlər Yeni ildə hamı can-deyib, can eşidəcək. Amma bizdə yox a... Bizdə sadəcə, nəsə deyəcəklər və biz də nəsə eşidəcəyik.
- Xoruza bu məhəbbət hardan? Birinin işi-peşəsi xoruz buraxmaq, digərininki xoruz döyüşdürmək, özündən böyüklə cücə kimi danışan başqa birisinin isə tabeliyindəkilərin üstünə xoruzlanmaqdır.
- Biri pul qazanır, biri nifrət... Ən pisi, pulu nifrətlə qazanmaqdır.
- Hətta bucağın nə olduğunu bilməyənin də, kor bucaq olsa belə, öz baxış bucağı var.
- Pis adamların bəxti həmişə gətirir. Ara vuranda da ancaq yaxşı adamların arasını vururlar.
- Günüm şükürlə keçir. Xüsusilə, vəzifədə məndən bir pillə böyük olanların hərəkətlərinə baxıb, ürəkdən şükür edirəm. Şükür edirəm ki, yalnız və yalnız vəzifə səlahiyyətlərinə görə məndən irəlidədirlər.
- Tökülən təkcə dişlərim deyil. Zəhləmi tökən də çoxdur.
- Görəsən o dünyada da mənim gördüyüm işləri öz adlarına çıxaranlar olacaq?
- Paxıl qonşudan uzaq düşmən yaxşıdır.

*Rasif TAHİROV*

## "DƏNİZ"İN GÜLÜŞ PAYI

### HANSI YAXINDIR?

- Sən bilərsən, cəhənnəm yaxın olar, cənnət?
- Cəhənnəm. Axı pislik hamının əlindən gəlir.

### ONDA QORXMA

Sərnişin kapitan köməkçisinə:
- İlk dəfədir gəmi ilə səfərə çıxıram. Düzü elə qorxuram ki...
- Üzə bilirsən?
- Yox.
- Onda nədən qorxursan?!

### BAŞIN DA BOŞDUR

- Ata, cibinə baxmaq olar?
- Nə üçün?
- Anam deyir ki, cibin də başın kimi boşdur.

### BİRİ BƏS DEYİL?

Müəllim məktəbli qıza tapşırır ki, anasız dərsə gəlməsin. Atası müəlliməyə zəng vurub səbəbini soruşur.
- Qızınız dərsdə çox danışır, - deyə müəllimə gileylənir.
- Onda anası nəyinizə gərək?! Biri bəs eləmir?

### MƏN AŞPAZ DEYİLƏM

Matros qaça-qaça həkimin yanına gəlib deyir.
- Həkim, kömək edin, aşpaz möhkəm xəstələnib.
- Başqa aşpaz axtarın. Mən xörək bişirməyi bacarmıram.

### NARAHAT OLMAYIN

Sərnişin kapitan köməkçisinə:
- Deyə bilməzsiniz, indi biz haradayıq?
- Narahat olmayın, hər halda quruda deyilik.

### SİZİ YAXŞI BİŞİRİB

- Siz niyə həmişə yeməkxanada yemək yeyirsiniz?
- Arvadım hələ xörək bişirə bilmir.
- Amma deyəsən sizi yaxşı bişirib.

### ƏLBƏTTƏ!

Ana qızına:
- Ərə getmək istədiyin kişinin səni atmayacağına əminsən?
- Əlbəttə, ana. Axı o, iki dəfə evlənib. Hər dəfə də arvadları onu atıblar.

### GƏRƏK TƏLƏSMƏYƏYDİM

Hakim oğurluq üstündə mühakimə olunan müttəhimdən soruşur:
- Peşmançılıq hissi keçirirsiniz?
- Əlbəttə. Həmişə gecədən xeyli keçməsini gözləyirdim. Bu dəfə kəmhövsələlik etdim.

### ŞAD XƏBƏR

Arvad ərinə:
- Ay kişi, gözün aydın, bu axşam qızına elçi gələcək.
- Doğrudan? Camaat vəzifəmi böyütdüklərindən nə tez xəbər tutdu?!

### NƏ QƏDƏR DÖZƏ BİLSƏLƏR

Atasıgilə hazırlaşan arvad ərindən soruşur:
- Atamgildə nə qədər qalım?
- Nə qədər dözə bilsələr.

*Rasif TAHİROV*




**BAŞ REDAKTOR**
Rasif İman oğlu TAHİROV

ÜNVANIMIZ:
Bakı şəhəri,
B. Ağayev küçəsi, 117
TELEFONLARIMIZ
Baş redaktor
(050) 670-33-76,
redaktor müavini
(050) 341-26-40

Qəzetin təsisçisi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətidir

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "OL" MMC-də çap olunmuşdur

Şəhadətnamə 271
Sayı 2000
Sifariş 207